**Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən 2023-cü il ərzində görülmüş işlərə dair məlumatlar**

2023-cü il ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (bundan sonra – Xidmət) tərəfindən aşağıdakı istiqamətlər üzrə müvafiq tədbirlər həyata keçirilmişdir:

- **Əmək hüquqları ilə bağlı daxil olmuş müraciətlərin araşdırılması üzrə**

Xidmət tərəfindən 2023-cü il ərzində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq vətəndaşlardan daxil olmuş **16 017** şikayət məzmunlu ərizə, eləcə də müxtəlif müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş **7 020** sorğu və məktub araşdırılaraq cavablandırılmışdır.

Xidmətdə ötən il ərzində II Qarabağ müharibəsi iştirakçıları və Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər tərəfindən daxil olmuş **236** müraciətdən **222** ədədi icra edilmiş, **14** ədədi barədə aidiyyəti müəssisələrə məktublar göndərilmişdir.

Xidmət tərəfindən görülmüş tədbirlərin nəticəsi olaraq vətəndaşlara gecikdirilmiş və ödənilməli olan **471 556,73** manat məbləğində vəsaitin ödənilməsi təmin edilmişdir.

Ümumi ödənişlərdən:
**78,5**%-i (**370 047,82** manat)- əmək haqqı;
**2,9** %-i (**13 601** manat)- zərərə görə ödənc;
**18,6**%-i (**87 907,91** manat)-sosial müavinətlər və kompensasiyadan ibarət olmuşdur.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş **107** nəfər öz əvvəlki işinə bərpa edilmiş, bu işçilər barəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir. Eyni zamanda işçilərin əmək hüquqlarının bərpası ilə əlaqədar **950** işəgötürənə icrası məcburi olan göstəriş verilmişdir.

Hesabat dövrü ərzində Xidmətin vəzifəli və rəhbər şəxsləri tərəfindən **8 578** vətəndaş qəbul edilmişdir.

Vətəndaş müraciətlərinə baxılmasını daha operativ və şəffaf şəraitdə həyata keçirmək məqsədilə 2023-cü ildən etibarən Bakı, Sumqayıt və Bərdə şəhərlərində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) Mərkəzlərində - "DOST" mərkəzlərində (mərkəzlər "vahid pəncərə sistemi" prinsipi ilə vətəndaşlara dövlət sosial xidmətləri göstərir) vətəndaş müraciətlərinin, eləcə də şikayətlərinin qəbul edilməsinə və araşdırılmas ına başlanılmışdır. Şikayətlərə baxılması (izahatların alınması, protokolların yazılması və s) "DOST" mərkəzlərində xüsusi video müşahidəli otaqlarda aparılmışdır

Vətəndaşlarla çevik və operativ əlaqə və əks əlaqələrin qurulması, onların şikayətlərinə daha operativ araşdırılması üçün əmək və sosial müdafiə sahəsində ixtisaslaşmış 142 "Çağrı mərkəzi"nə zənglərin inteqrasiyasına başlanılmışdır.

Vətəndaş müraciətlərinin qanunvericiliyin tələblərinə uyğun araşdırılması ilə bağlı mütəmadi monitorinqlər aparılmış, şikayətlər araşdırılmış, pozuntu halları aşkar edildiyi zaman pozuntuya yol vermiş əməkdaşlarla bağlı müvafiq intizam məsuliyyəti tədbirləri görülmüşdür.

Vətəndaşların əmək müfəttişlərinin fəaliyyətində korrupsiya hüquq pozması ilə bağlı şikayətlərinin verilməsi üçün ayrıca telefon xətti istifadədir və təbliğatı aparılmışdır.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin sosial şəbəkə hesablarından daxil olan vətəndaş şikayətləri araşdırılmaya yönləndirilmiş, “chat-botlar”, sosial şəbəkələr və “whatsapp” nörməsi ilə vətəndaşların sualları birbaşa cavablandırılmışdır.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyətinin İSO 37001 beynəlxalq standartının tələblərinə uyğun təşkilinin təmin edilməsi, vətəndaşların müraciətlərinə baxılmasın ın təkmilləşdirilməsi məqsədi ilə “Müraciətlərə baxılmasına dair daxili Qaydalar” təsdiq edilmişdir.

### ❖ Uşaq əməyi və məcburi əməyin qarşısının alınması üzrə

2023-cü il ərzində hüquq mühafizə orqanları tərəfindən Xidmətə daxil olmuş materiallar əsasında işəgötürənlər tərəfindən **2** halda **15** yaşına çatmamış şəxsin işə cəlb edilməsi faktı aşkar edilmiş və bu faktla əlaqədar işəgötürənlər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 192.8-ci maddəsinə əsasən inzibati məsuliyyət tədbiri görülmüşdür.

2023-cü il ərzində **1** halda işçini əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmə faktı aşkar edilmiş və bu faktlarla əlaqədar işəgötürən barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 193-cü maddəsinə əsasən inzibati məsuliyyət tədbiri görülmüşdür.

### ❖ Bədbəxt hadisələrin araşdırılması və əməyin mühafizəsi sahəsində işlər üzrə

Xidmətə daxil olan araşdırmaların (təhqiqatların) aparılmasının yeni metodoloji tətbiqi, proseslərin sürətli və effektiv şəkildə aparılması, risklərin minimuma endirilməsi və nəzarətdə saxlanılması məqsədilə “İstehsalatda baş verən bədbəxt hadisələrin araşdırılmasının (təhqiqatın) prosesi və işə alınmasının daxili Qaydası” təsdiq edilmişdir.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyətinin İSO 37001 beynəlxalq standartının tələblərinə uyğun təşkilinin təmin edilməsi, istehsalatda baş vermiş bədbəxt hadisələ rin araşdırılmasının (təhqiqatın), əmək qanunvericiliyinə əməl olunması sahəsində aparılan yoxlamaların və nəzarət mexanizminin təkmilləşdirilməsi, şəffaflığın və obyektivliyi n artırılması məqsədilə “İstehsalatda baş verən bədbəxt hadisələrin araşdırılmasını n (təhqiqatın) aparılması və əmək qanunvericiliyinə əməl olunması sahəsində aparılan

yoxlamalar zamanı texniki vasitələrdən istifadəyə dair daxili Təlimat" Nazirliyin əmri ilə təsdiq edilmişdir.

İnzibati xətalar haqqında işlər üzrə tərtib edilmiş protokol və verilmiş qərarların icrasına nəzarətin elektron qaydada aparılması, statistik məlumatların emalının avtomatlaşdırılmas ı, inzibati xəta haqqında işlər üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsi, müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyalardan istifadə nəticəsində operativliyin təmin edilməsi, eləcə də bədbəxt hadisələrlə bağlı daxil olan məlumatların vahid platformada toplanması, təhqiqat materiallarının aidiyyəti orqanlar tərəfindən elektron şəkildə əldə edilməsi imkanının yaradılması, baş vermiş bədbəxt hadisələrin müəyyən edilmiş göstəricilər üzrə təhlillərinin aparılmasının təmin edilməsi məqsədilə "Əmək və məşğulluq" altsistemində "İstehsalatda baş vermiş bədbəxt hadisələrin araşdırılmasının (təhqiqatın) aparılması" və "İzibati xətaların izlənməsi və icrası" e-reyestrləri hazırlanaraq istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı ilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmas ına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının icrası ilə əlaqədar "Avropa İttifaqının müvafiq direktiv və qaydalarının siyahısı"nın "(EU) 2016/425 Fərdi mühafizə vasitələri haqqında" və "92/57/EEC Müvəqqəti və ya səyyar (mobil) tikinti sahələrində minumum təhlükəsizlik və sağlamlıq tələblərinin həyata keçirilməsinə dair" direktivləri əsasında istinad standartlarının layihələrinin hazırlanması tapşırılmışdır. "Əmək sahəsində" standartlaşdırma üzrə Texniki Komitənin katibliyi və sədrliyi Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən həyata keçirildiyindən, eləcə də qeyd olunan milli standartların tətbiqinin vacibliyi nəzərə alınaraq istinad standartlarının hazırlanmasının AZSTAND TK/21-in növbəti illərdə Fəaliyyət Planına daxil edilməsi ilə bağlı işlər aparılacaqdır. Hazırda 1 milli standart (ISO 45001:2018 Peşə Sağlamlığı və Əməyin Təhlükəsizliyi İdarəetmə Sistemi) təsdiq olunmuşdur. Qeyd olunan standart milli standart (AZS İSO 45001) kimi təsdiqlənmişdir.

"Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və "Azərbaycan Respublikasının Əmək və Əhalini n Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" "Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 23 may 2023-cü il tarixli Fərmanına əsasən Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mərkəzi laboratoriyasının əsasında Xidmətin tabeliyində "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsin yaradılması tapşırılmışdır. Bununla bağlı olaraq Nazirliyin Kollegiyasının 2023-cü il 30 may tarixli 3-17/3-5-18/2023 nömrəli Qərarı ilə "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsi yaradılmış və Nizamnaməsi təsdiq edilmişdir. Mərkəzin fəaliyyətinin təşkili ilə bağlı işlər həyata keçirilmişdir.

Mərkəzin mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlara, digər işəgötürənlərə bağlanan müqavilələr əsasında əməyin mühafizəsi sahəsində iş yerlərinin attestasiyasının keçirilməsinə hazırlıqla bağlı məsləhət xidmətləri və metodiki dəstək göstərmək, iş yerlərində təhlükəli və zərərli istehsalat amillərinin faktiki göstəricilərini müəyyən etmək, iş yerlərinin zədə təhlükəsizliyini qiymətləndirmək, işçilərin

fərdi mühafizə vasitələri ilə təmin edilmələrini qiymətləndirmək, iş yerlərində iş şəraitinin faktiki vəziyyətini qiymətləndirmək, təhlükəli və zərərli istehsal amillərinin parametrlərinin ölçülməsi, əmək proseslərinin ağırlıq və gərginlik göstəricilərinin müəyyən olunması məqsədi ilə laboratoriya xidmətləri göstərmək və s. vəzifələri vardır.

### ❖ "Əmək və Məşğulluq" altsistemindən istifadənin təkmilləşdirilməsi üzrə

"Əmək və Məşğulluq" altsistemində (ƏMAS) qeyri-formal məşğulluq səviyyəsinin aşağı salınması, əmək müqavilələrinin kağız üzərində deyil, elektron qaydada bağlanması, kadr kargüzarlığının elektron müstəviyə keçirilməsi, əmək münasibətləri sahəsində rəqəmsal göstəricilərin reallığa uyğunlaşdırılması, işəgötürənlər tərəfindən sui -istifadə hallarının qarşısının alınması və proaktiv nəzarət tədbirlərinin təşkili, işçilərin hüquqlarının təmin edilməsi səviyyəsinin artırılması məqsədilə müvafiq funksionallıqlar yaradılmışdır.

Belə ki, elektron əmək müqavilələrinin tətbiqi ilə bağlı funksionallıq yaradılmış və Nazirlik, onun tabe qurumlarında pilot qaydada tətbiq edilmişdir.

Məzuniyyət əmrlərinin ƏMAS üzərindən formalaşdırılması funksionallığı noyabr ayından işəgötürənlərin istifadəsinə verilmişdir.

Oktyabr ayından ƏMAS-a əmək müqavilərinin elektron formalarına aşağıda qeyd olunan funksionallıqlar əlavə edilmişdir:

- ✓ Əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə pulsuz müalicəvi profilaktiki yeməklər, süd və ona bərabər tutulan digər məhsulların verilməsi;
- ✓ İşçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə pulsuz xüsusi geyim, xüsusi ayaqqabı və digər fərdi mühafizə vasitələrinin verilməsi;
- ✓ İşçilərin əməyin mühafizəsi normaları və qaydaları üzrə təlimatlandırılması;
- ✓ İş yerlərinin attestasiyasının nəticələri əsasında əmək şəraiti ağır və zərərli olan işlərdə çalışan işçilərin tarif (vəzifə) maaşlarına əmək şəraitinin ağır və zərərlik səviyyəsindən asılı olaraq artımın (əmsalın) minimum miqdarı;
- ✓ Əmək Məcəlləsinin 117-ci maddəsinə əsasən uşaqlı qadınların əlavə məzuniyyət günlərinin daxil edilməsi.

Sistem tərəfindən işçi sayı 50, 500 və 1000 nəfəri keçdikdə müvafiq olaraq əməyin mühafizəsi üzrə mühəndis, müəssisə rəhbərinin (baş mühəndisinin) əməyin mühafizəsi üzrə müavini, əməyin gigiyenası üzrə həkim ştatların yaradılması və həmin ştatlara işçi götürüldükdən sonra digər vəzifələrə təyin edilmiş işçilərlə əmək müqaviləsini n bağlanılmasına icazə verilməsi üçün məcburi funksionallıq ƏMAS-a əlavə edilmişdir.

ƏMAS-da dövlət qulluqçuları ilə bağlanmış əmək müqavilələrinin qanunvericili yi n tələblərinə uyğun olaraq elektron formasının hazırlanması, eyni zamanda dövlət qulluğu üzrə hər 3 müqavilə növündə **(staj, sınaq və daimi)** dövlət qulluqçularının əmək haqlarına əlavələrin avtomatik hesablanması və əmək müqavilələrinin çap edilməsi funksionallıqlar ı yaradılmışdır.

2023-cü ilin III rübündən etibarən ƏMAS-da iş yerlərinin attestasiyası modulu istifadəyə verilmişdir.

Müxtəlif dövlət qurumlarının məlumatlarının ƏMAS-la qarşılıqlı inteqrasiyası üzrə işlər davam etdirilmiş, hesabatlılıq formaları təkmilləşdirilmişdir.

ƏMAS üzərindən elektron audit modulu hazırlanmış və pilot rejimdə tətbiqinə başlanılmışdır. Eyni zamanda "İstehsalatda baş vermiş bədbəxt hadisələrin araşdırılmasını n (təhqiqatın) aparılması" və "İzibati xətaların izlənməsi və icrası" e-reyestrləri hazırlanaraq istifadəyə verilmişdir.

2023-cü il ərzində işəgötürənlər tərəfindən işçilərin "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Resbublikasının Qanununa və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 155-ci maddəsinin 3-cü hissəsinə əsasən aylıq iş vaxtı normasını işləmiş və əmək funksiyasını yerinə yetirmiş işçinin aylıq əmək haqqısının dövlət tərəfindən müəyyən edilmiş minimum əmək haqqı məbləğindən aşağı müəyyən edilməməsi üçün Xidmət tərəfindən işəgötürənlərə ƏMAS-da xəbərdarlıqların yerləşdirilməsi, sms bildirişlərin, məktubların göndərilməsi, onlarla görüşlərin keçirilməsi kimi tədbirlər görülmüşdür.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində, əmək müqavilələrinin sayında artım tempi davam etmiş, ƏMAS-dan 2024-cü ilin 6 yanvar tarixinə olan məlumata əsasən 2024-cü ilin əvvəlinə ötən illə müqayisədə əmək müqavilələrinin sayında ümumilikdə 62,5 min əmək müqaviləsi bildirişi artımı olmuşdur.

### ❖ Korrupsiyanın qarşısının alınması və kadr potensialının inkişafı üzrə

Xidmətin Aparatında İSO 37001 beynəlxalq standartının tələblərinə uyğun olaraq Aparatın şöbələrində daxili audit yoxlaması həyata keçirilmişdir.

Xidmətin 24 may 2023-cü il tarixli əmri ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən 25-26 may tarixində Bakı Şəhər İdarəsində və Abşeron-Xızı regional şöbəsində, 08-09 iyun tarixində Quba-Xaçmaz, 21-23 iyun tarixində Dağlıq Şirvan və Şəki-Zaqatala, 20-21 iyul tarixində Lənkəran-Astara və Şirvan-Salyan, 01-04 avqust tarixində Gəncə-Daşkəsən və Qazax-Tovuz, 11-13 oktyabr tarixində Mərkəzi Aran, Mil-Muğan və Qarabağ regional şöbələrində yerində yoxlamalar həyata keçirilmişdir.

İşə qəbul olunan yeni əməkdaşlara Xidmət tərəfindən "İSO 37001" beynəlxalq standartı ilə bağlı təlimlər təşkil olunmuşdur.

Eyni zamanda Xidmətin Aparatı, Bakı şəhər İdarəsi və regional şöbələrində çalışan müfəttiş və hüquqşünaslarən peşə biliklərinin artırılması üçün "Əmək qanunvericiliyi nin tətbiqi", "Əməyin mühafizəsi", "Əmək və Məşğulluq Alt Sistemi" və "İnzibati Xətalar Məcəlləsinin tətbiqi" mövzularında ümumilikdə **2232** nəfər əməkdaşın iştirakı ilə daxili funksional təlimlər keçirilmişdir.

### ❖ Qanunvericiliyin təkmilləşdirilməsi üzrə

Xidmət tərəfindən əmək qanunvericiliyinə nəzarətin daha səmərəli həyata keçirilməsi, işəgötürənlər tərəfindən maliyyə itkilərinə məruz qalmadan inzibati xəta pozuntularının aradan qaldırılması, hüquqları pozulmuş işçilərin hüquqlarının bərpa olunması məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 38.1, 116.1,192.4, 192.13, 198.1.5, 469.2 və 539-cü maddəsinə dəyişiklik edilməsi ilə bağlı layihə hazırlanaraq razılaşdırılması üçün müvafiq orqanlara təqdim edilmişdir.

DƏMX-in xidməti pasportları Nazirliyin Kollegiyasının 03 may 2023-cü il tarixli 3-17/3-5-11/2023 nömrəli qərarı ilə təsdiq edilmişdir. Xidmətlərin hüquqi əsaslarının daha dəqiq müəyyənləşdirilməsi ilə bağlı Xidmət pasportlarında dəyişikliklər edilərək Nazirliyə təqdim olunmuşdur.

Xidmətin Aparatını, struktur bölmələri və yerli orqanlarını məhkəmələrdə təmsil etmək, hüquq və qanuni mənafelərinin müdafiəsini təmin etmək, inzibati xəta haqqında iş üzrə qərarların icrasına nəzarəti həyata keçirmək və qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək məqsədilə 12 dekabr 2023-cü il tarixində DƏMX-in Hüquq İdarəsi yaradılmışdır.

Xidmət tərəfindən işəgötürən və işçilərdən daxil olan sorğular, vətəndaş şikayətləri, işəgötürənlər tərəfindən yol verilən pozuntular təhlil edilməklə Xidmətə daxil olan müxtəlif qanunvericilik layihələrinə rəy və təkliflər verilmişdir.

### ❖ İctimaiyyətlə əlaqələr və maarifləndirici tədbirlər üzrə

Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəsmi internet saytı (demx.gov.az) istifadəyə verilmişdir.

Xidmətin əmri ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Sosial Media Marketinq strategiyası” təsdiq edilmişdir.

2023-cü il üzrə işəgötürənlərin maarifləndirilməsi üzrə Xidmətin daxili əmri ilə Tədbirlər Planı təsdiq olunmuş və icrası təmin edilmişdir

Xidmətin 2023-cü il üçün təsdiq edilmiş Tədbirlər Planına əsasən 2023-cü il ərzində işçilərin əmək hüquqları sahəsində müxtəlif mövzularda işəgötürənlərin və işçilərin maarifləndirilməsi məqsədilə Bakı şəhərini və ölkənin regionlarını əhatə edən 60 maarifləndirmə tədbiri həyata keçirilmişdir. Tədbirlərdə 6500-dən çox işəgötürən və onların nümayəndələri iştirak etmişdir. Tədbirlərdə İnsan Hüquqları üzrə Müvəkkili n (Ombudsman), Həmkarlar İttifaqları Konfederasiyasının, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, Elm və Təhsil Nazirliyinin regional bölmələrinin və qeyri-hökumət təşkilatlarının nümayəndələri, işəgötürənlər iştirak etmişdir. Qeyd edilən tədbirlər çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmək bazarı üzrə işçi qrupunun “2023-cü il üzrə Fəaliyyət Planı”nın icrası ilə

bağlı əmək münasibətlərində gender bərabərliyinə dair Zəngilan rayonu da daxil olmaqla regionlarda və Bakıda 14 maarifləndirici görüş keçirilmişdir.

Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması, iş yerlərində baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması və müvafiq qabaqlayıcı tədbirlərin görülməsi üçün işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən müəssisələrin işəgötürənləri və işçiləri üçün 2023-cü ilin aprel ayından etibarən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə birgə əməyin mühafizəsi və mina təhlükəsizliyi istiqamətlərində maarifləndirici tədbirlər keçirilmişdir. Tədbirlərdə ümumilikdə 6 rayonda (Füzuli, Laçın, Tərtər (Suqovuşan, Talış), Ağdam, Cəbrayıl və Zəngilan) 74 işəgötürən üzrə təxminən 1480 nəfər işçi heyətinin məlumatlandırılması təmin olunmuşdur. Tədbirlər zamanı işəgötürənlərin fəaliyyətində hüdürlükdə işlər, yükqaldırma işləri və qazıntı işlərinin icrasında təhlükəsizlik tədbirlərinin görülməsi və işçilər tərəfindən fərdi mühafizəsi vasitələrindən (FMV) istifadə edilməsi (hündürlükdə iş zamanı təhülükəsizlik kəmərindən istifadə edilməsi, qazıntı və yükqaldırma işlərində ətrafın çəpərlənməsi, işçilər tərəfindən FMV-dən istifadə edilməsi və s.) qanunvericiliyin tələbləri işəgötürənlərin nümayəndələrinə və işçilərinə çatdırılmışdır. Eyni zamanda əməyin mühafizəsi sahəsində qanunvericiliyin tələbləri üzrə Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən hazırlanmış təlimat xarakterli bukletlər və posterlər tədbir iştirakçılarına paylanılmışdır.

Eyni zamanda uşaq əməyinin istismarının qarşısının alınması sahəsində işəgötürənlərin maarifləndirilməsi məqsədilə il ərzində “Uşaqların əmək hüquqları. Məcburi əmək və insan alverinin qarşısının alınması” mövzusunda 4 maarifləndirmə tədbiri həyata keçirilmişdir. Belə ki, Uşaqların Beynəlxalq Müdafiəsi Günü və 12 iyun-Uşaq Əməyinə Qarşı Ümumdünya Mübarizə Günü ilə əlaqədar olaraq “Uşaq əməyinin qarşısının alınması sahəsində uşaqların və işəgötürənlərin maarifləndirilməsi” mövzusunda Salyan, Quba və İsmayıllı rayonlarında maarifləndirici tədbirlər keçirilmişdir. Eyni zamanda “Uşaq Hüquqları Aylığı” çərçivəsində Bakı və Sumqayıt şəhərlərinin internat məktəblərində uşaqların əmək hüquqlarına dair əlilliyi olan uşaqlar da daxil olmaqla ümumilikdə 400 nəfərdən çox şagirdin iştirakı ilə 7 tədbir keçirilmişdir.

26 aprel 2023-cü il tarixində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Xidmətin təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycanda əmək hüquqlarının etibarlı təminatı” mövzusunda biznes dairələr, işəgötürənlər və aidiyyəti dövlət qurumları olmaqla ümumilikdə 100-dən çox şəxsin iştirakı ilə konfrans keçirilmişdir.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin tərəfdaşlığı, DOST Agentliyinin “Könüllü DOST” proqramının təşkilatçılığı ilə gənc könüllülər üçün “Əmək hüquqları” adlı 1 aylıq təlim proqramı təşkil olunmuşdur. Proqramın bağlanış mərasimi uşaqlar, gənc könüllülər, işəgötürənlər və aidiyyəti dövlət orqanlarının nümayəndələri də daxil olmaqla 120 nəfərdən çox şəxsin iştirakı ilə keçirilmişdir. Tədbirdə uşaqlar təlim proqramı zamanı əldə etdikləri biliklər əsasında sosial teatr nümayiş etdirmişdilər.

Bütün populyar sosial şəbəkələrdə Xidmətin hesabları yaradılmış, onlar üzərindən əmək qanunvericiliyi, işçilərin hüquqları və əməyin təhlükəsizliyi mövzularında mütəmadi

olaraq paylaşımlar edilmişdir. Qanunvericiliyə və ƏMAS-a edilmiş dəyişikliklər operativ qaydada ictimaiyyətin diqqətinə çatdırılmışdır.

"Onlayn müfəttiş" layihəsi çərçivəsində müxtəlif mövzularda video-çarxlar yayımlanmışdır.

BƏT-in tövsiyələri və standartları nəzərə alınmaqla analığın mühafizəsi, əməyin mühafizəsi və uşaq hüquqları mövzusunda video-roliklər hazırlanmışdır. Bu roliklərdə əməyin təhlükəsizliyi və mühafizəsinə dair yerli və beynəlxalq qanunverici liyin tələbləri əks etdirilmişdir.

- **Beynəlxalq və yerli təşkilatlatlarla əməkdaşlıq üzrə**

Sosial tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsi, birgə tədbirlərin daha effektiv və planlı təşkili məqsədilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Dövlət Əmək Müfəttişliyi Xidməti arasında Tədbirlər Planı təsdiq edilmiş və icrasına başlanılmışdır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsi ilə müvafiq sahələrdə əməkdaşlığın səmərəliliyinin artırılması üçün İdarə və Dövlət Əmək Müfəttişliyi Xidməti arasında əməkdaşlıq istiqamətlərinə dair Tədbirlər Planı təsdiq edilmişdir.

Xüsusilə qeyri-formal məşğulluqla mübarizə sahəsində səylərin gücləndirilməsi və qarşılıqlı məlumat mübadiləsi üçün Dövlət Vergi Xidməti ilə il ərzində 4 dəfə görüş keçirilmişdir.

3 mart tarixində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətində Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Məşvərət Şurasının üzvləri olan işəgötürənlərlə görüş keçirilmişdir. Görüşdə əmək qanunvericiliyinin tətbiqinə nəzarət mexanizminin təkmilləşdirilməsi, bu sahədə tətbiq olunan innovativ yeniliklər, habelə qanunvericiliyin işəgötürənlər tərəfindən tətbiqi zamanı meydana çıxan məsələlər müzakirə edilmişdir. Tədbirdə aqrar sahədə işəgötürənlərin əmək qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təklifləri dinlənilməklə, onlara qanunvericiliyin tətbiqi üzrə müvafiq tövsiyələr verilmişdir.

8 avqust tarixində Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") İnsan Resursları və Əmək Komitəsinin nümayəndələri ilə görüş keçirilmişdir. Görüşdə ölkəmizdə əmək qanunvericiliyinin əmək bazarında yeni çağırışlara, müasir tələblərə uyğun təkmilləşdirilməsi istiqamətində atılan addımlar, əmək qanunvericiliyində son dəyişikliklər barədə məlumat verilmişdir. Nazirliyin Əmək siyasəti şöbəsinin və Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəhbər vəzifəli şəxsləri və Komitənin nümayəndələri arasında Əmək Məcəlləsinin tətbiqi ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

25 oktyabrda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və "Caspian Energy Club"-un birgə təşkil etdiyi və Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş dövlət və özəl sektor üzrə işəgötürənlərin 120-dən çox nümayəndəsinin qatıldığı "B2G

Forum"unda Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi fəxri qonaq qismində çıxış edərək layiqli əməyin təmini üzrə ölkəmizdə aparılan islahatlardan, ƏMAS-ın, əməyin mühafizəsi və proaktiv nəzarət tədbirlərinin aparılmasında yaratdığı imkanlardan, eyni zamanda əməyin mühafizəsi sahəsində işğaldan azad edilmiş rayonlarda Minatəmizləmə Agentliyi ilə birgə həyata keçirilən geniş maarifləndirmə tədbirlərindən və Xidmətin tabeliyində yaradıl mış Əməyin Mühafizəsi Mərkəzinin göstərilən xidmətlərin çeşidlərinin artırılmasında əhəmiyyətli rol oynayacağından bəhs edilmişdir.

31 oktyabr - 1 noyabr tarixlərində ƏMAS-da əmək müqaviləsinə edilmiş əlavələr və məzuniyyət əmrlərinin sistem üzərindən formalaşdırılması mövzusunda vebinarlar keçirilmişdir. Vebinarlarda dövlət, qeyri-dövlət sektorunu və biznes dairələrini (AmCham, Caspian Energy Club, ATİB, TÜİB, MÜSİAD) təmsil edən 140-dan çox şəxs iştirak etmişdir.

9 dekabr 2023-cü il tarixində Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) tərəfindən Türkiyə Respublikasının səfiri doç. dr. Cahit Bağçının rəhbərliyi ilə keçirilən "Heydər Əliyev 100 - Bir millət, iki dövlətin iş dünyası" adlı konfransda Xidmət rəhbərliyi iştirak etmişdir.

20 dekabr 2023-cü il tarixində "Caspian Energy Club" tərəfindən Azərbaycanın ümummilli lideri Heydər Əliyev cənablarının 100 illik yubileyinə həsr olunmuş Azərbaycanda keçirilən 100-cü tədbir və 10-cu Beynəlxalq "Caspian Business Award 2023" mükafatının təqdimetmə mərasimində Xidmətin rəis müavini iştirak etmişdir.

Cari ildən başlayaraq Nazirliyin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə Xidmətin birgə layihəsi olan "DOST Müfəttiş" layihəsinə start verilmişdir. Layihənin məqsədi insan resurslarının idarə olunması, əmək qanunvericiliyi nin tətbiqi, o cümlədən və əməyin təhlükəsizliyi sahələrində proseslərin və kadrların diaqnostik qiymətləndirilməsi ilə müvafiq sahələrin təkmilləşdirilməsini təmin etməkdir. Layihə çərçivəsində pilot olaraq 3 işəgötürənlə əməkdaşlığa başlanılmış, onların əmək qanunvericiliyinə riayət olunma səviyyəsinin ölçülməsi ilə bağlı müxtəlif metodlarla (görüşlər, sorğular, yoxlamalar) analizlər aparılmış, ehtiyaclar aşkar edilmişdir. Hazırda həmin işəgötürənlərə tövsiyə və məsləhət xarakterli arayış hazırlanmaqdadır.

Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında imzalanmış 10-cu Birgə Daimi Komissiyanın Tədbirlər Planının 10-cu "Təftiş fəaliyyətlərinin səmərəliliyini n artırılması" və 11-ci "Əməyin mühafizəsi və təhlükəsizliyi tədbirlərinin yerində tədqiqi" bəndlərinə uyğun olaraq 2023-cü ilin 11-15 sentyabr tarixlərində Türkiyənin Rəhbərlik və Təftiş Başqanlığının və Əməyin Mühafizəsi və Təhlükəsizliyi Baş İdarəsinin Bakıya səfəri təşkil olunmuşdur.

14 noyabr 2023-cü il tarixində Litvanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi ilə onlayn formatda görüş keçirilmişdir. Görüşdə tərəflər arasında əməkdaşlıq istiqamətləri müzakirə edilmişdir.

25 noyabr 2023-cü il tarixində Tacikistanın Əmək, miqrasiya və əhalinin məşğulluğu naziri Gülnora Hasanzodanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir;

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ilə Rusiya Federasiyasının Əmək və Məşğulluq üzrə

Federal Xidməti arasında qarşılıqlı əməkdaşlıq haqqında Memorandum” layihəsi hazırlanm ış və imzalanma mərhələsindədir.

8 dekabr 2023-cü il tarixində Serbiyanın Dövlət Əmək Müfəttişliyi ilə onlayn görüş təşkil olunmuşdur. Görüşdə qeyri-formal məşğulluq, əməyin mühafizəsi və təhlükəsizliyi, risk əsaslı yoxlamalar, əmək münasibətlərinin elektron formada tənzimlənməsi mövzuları ətrafında müzakirələr aparılmışdır.

16 noyabr 2023-cü il tarixində Moldova Respublikasının Sosial Sığorta üzrə Milli Kassanın direktoru Yelena Tibirnanın başçılıq etdiyi nümayəndə heyəti ilə Bakıda görüş keçirilmişdir. Eyni zamanda 15 dekabr 2023-cü il tarixində Moldovanın Dövlət Əmək Müfəttişliyi ilə onlayn görüş təşkil olunmuşdur. Hazırda “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti ilə Moldova Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi arasında əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu”nun imzalanması barədə danışıqlar aparılmışdır . Layihənin son variantı qarşı tərəfə baxılması üçün təqdim edilmişdir.